*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 fevral 2017-ci il № 12 (2129) Qiymәti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Aprel döyüşlərindən sonra nəinki Ermənistan ordusu, Ermənistan dövləti silkələndi

*Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu sözləri fevralın 9-da şəhid əsgərimiz, Milli Qəhrəman Çingiz Qurbanovun ailə üzvləri ilə görüşündə qeyd etdi. 2016-cı il aprelin əvvəllərində cəbhənin düşmənlə təmas xəttində erməni silahlı bölmələrinin törətdiyi təxribatların qarşısının alınmasında Azərbaycan Ordusunun şəxsi heyəti böyük uğura imza atdı.*



Vətənin hər qarışı uğrunda can əsirgəməyən oğullar lap qısa müddətdə düşmənə böyük güc nümayiş etdirərək bir neçə vacib yüksəkliyin işğaldan azad edilməsinə nail oldular. Azərbaycan cəmiyyətində böyük coşqu ilə qarşılanan bu qələbəmiz qarşı tərəfdə, yəni işğalçı dövlətdə vahimə və həyəcan doğurdu. Ermənistanın müstəqil ekspertləri və ziyalıları ölkədə mövcud hakimiyyətin bu qələbədən səksəkəyə düşməsini çəkinmədən qeyd etdilər. Həmçinin beynəlxalq səviyyəli analitiklər Azərbaycanın şəksiz siyasi-iqtisadi və hərbi üstünlüyə malik olduğunu və bununla müqayisədə işğalçı dövlətin hərbi-siyasi rejiminin tənəzzülə uğradığını dilə gətirdilər.

Əslində, qələbə Azərbaycan tərəfinin döyüş ruhunun qələbəsi idi. Düşmənlə savaşa qələbə əzmi ilə atılan oğullar torpaqlarımızı son qarışına kimi işğaldan azad etməyə qadir idilər. Onlar bütün dünyaya bir daha sübut etdilər ki, Azərbaycan dövləti və xalqı torpaqlarının işğal faktı ilə barışmayacaq. Bu bir tərəfdən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ikili standartlardan çıxış edən super dövlətlərə bir məsələni nümayiş etdirdi ki, xalqımız ədalətli mübarizəyə qatılıb və haqq bizim tərəfimizdədir. Bizdən fərqli olaraq erməni əsgərləri özgə torpağında döyüşməyin mənasız olduğunu dərk etdilər və buna görə də döyüş meydanını tərk edib qaçmağı üstün tutdular. Bu yerdə Azərbaycan Prezidentinin "Əgər erməni əsgəri ölmək istəmirsə, onda bizim ərazilərimizdə nə gəzir" fikri düşmənə əsl mesaj idi. Elə bu baxımdan Ermənistan ordusunun məğlubiyyəti sadə erməni xalqında ikrah doğurdu. Aprel döyüşlərində qələbə sevinci yaşadığımız halda, ermənilərdə ruh düşkünlüyü yarandı. Ermənistanın həm ziyalıları, həm də sadə insanları bir daha dərk etdilər ki, erməni rəsmilərinin apardığı işğalçılıq siyasətinin sonu yoxdur. Əksinə, bu avantürist siyasət bütöv bir milləti dilənçi vəziyyətinə salıb. Heç kəsə sirr deyil ki, bu gün Ermənistan dövləti müflisləşib və yalnız xaricdən topladığı ianələr hesabına dolanır.

Aprel müharibəsində hər iki tərəfdə bir-birinə zidd olan mənzərə yaranmışdı. Azərbaycan Ordusunun cəbhə xəttindəki uğurlarına dəstək olmaq üçün ölkəmizin müxtəlif şəhər və rayonlarında toplaşan gənclər zəfər yürüşündə bilavasitə iştirak etmək üçün cəbhə bölgələrinə axışırdılar. Amma ordu komandanlığı hərbi hissələrimizin döyüş aparmaq üçün yetərincə imkanlara malik olduğunu bildirərək ələvə heç bir köməyə ehtiyac olmadığını bəyan edirdi.

(Ardı 2-ci səhifədə)



Mən də qürur yaşadım

2-ci səhifədə



Vətənin hava müdafiəçiləri

3-cü səhifədə



Silahlı Qüvvələrimizin hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib

4-5-ci səhifədə



Dövlətin qayğısı, xalqın sevgisi

6-cı səhifədə

AZƏRBAYCAN ORDUSU

Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Aprel döyüşlərindən sonra nəinki Ermənistan ordusu, Ermənistan dövləti silkələndi

(Əvvəli 1-ci səhifədə)



Həmin günlərdə Ermənistanda real vəziyyət necəydi? Düşmən dövlətin əsgərləri nəyin uğrunda mübarizə apardıqlarını dərk etmədikləri üçün və illərdən bəri özgə torpağında döyüşməyin mənasız olduqlarını başa düşərək döyüş postlarını tərk edib qaçırdılar. Hətta Ermənistanın kriminal rəhbərliyinin işğal edilmiş torpaqlarımızda zor gücünə məskunlaşdırdıqları dinc sakinlər də nəinki eveşiklərini, hətta Ermənistanı tərk edib xaricdə sığınacaq axtarmağa tələsirdilər. Ermənistan polisi isə arxada barrikadalar quraraq qaçan hərbçilərin və dinc ermənilərin qarşısını alırdı. Aprel döyüşlərindəki uğursuzluq, əslində, Ermənistanda bütün sahələrdə çat yaratdı. Yüksək rütbəli erməni zabitləri cəzalandırıldı, nə qədər hərbi qulluqçu fərarilik faktı ilə tribunala çıxarıldı. Bu bir daha göstərdi ki, ədalət olmayan yerdə zəfərdən danışmaq mənasızdır. Yəni, ermənilərin özləri anladılar ki, zor gücü ilə özgə torpağında xoşbəxt olmaq mümkünsüzdür. Əlbəttə, Qarabağ əzəli Azərbaycan torpağıdır, bu yerlərdə əcdadlarımızın ruhu dolaşır, elə buna görə də yadların tapdağı ola bilməz. Biz Qarabağ deyəndə Vətənimizin muğam-sənət beşiyini düşünürük, dünyanın sənət inciləri yetişib bu məkanda.

Azərbaycanın aprel döyüşlərində mühüm qələbəyə imza atması, əslində, beynəlxalq qurumlara da ciddi bir mesajdır ki, torpağı işğal edilmiş bir xalqın hissiyyatı ilə oynamaq olmaz. Münaqişəni həll etmək üçün konkret addımlar atılmalıdır. Doğrudan da, aprel döyüşləri zamanı ordu ilə xalqın sıx birliyi düşmən dövlətə bir daha anlatdı ki, Azərbaycan istənilən yolla ərazi bütövlüyünü təmin etməyə hazırdır.

**Polkovnik-leytenant
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyində xidməti müşavirə keçirilib

*Fevralın 11-də Silahlı Qüvvələrin Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*

Müdafiə nazirinin müavinləri, Silahlı Qüvvələrin növləri və qoşun qisimləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, birlik və birləşmə komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən hərbi hissələrin komandirləri və digər məsul zabitlər də cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Silahlı Qüvvələrin qarşısında qoyduğu tapşırıqları şəxsi heyətə çatdıran nazir cəbhə xəttində yaranmış son vəziyyətin təhlilini apararaq qarşıda duran vəzifələri xüsusi qeyd edib.

General-polkovnik Zakir Həsənov bütün kateqoriyalardan olan komandir və rəis heyətinə xidməti döyüş fəaliyyətinin artırılması, xüsusilə ön xətdə yerləşən bölmələrin döyüş hazırlığı, müdafiə sisteminin hərtərəfli təminatı, döyüş növbətçiliyinin və qoşunların döyüş qabiliyyətinin daha da təkmilləşdirilməsi ilə əlaqədar müvafiq göstərişlər verib.

Müşavirədə şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yüksəldilməsi işinin qəhrəmanlıq nümunələrinə əsaslanaraq həyata keçirilməsi, hərbi qulluqçuların Vətənə, dövlətə və Ali Baş Komandana misilsiz sədaqət ruhunda tərbiyə olunmasının vacibliyi qeyd olunub.

Müdafiə naziri cəbhə xəttində düşmənin fəaliyyətinin daim izlənilməsi, bütün istiqamətlərdə hərbi üstünlüyün və təşəbbüsün əldə saxlanılması, o cümlədən düşmən təxribatlarına qarşı dərhal və təsirli tədbirlərin görülməsi ilə bağlı müşavirə iştirakçıları qarşısında tapşırıq qoyub.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**



*Ön xətdən reportaj*

# Mən də qürur yaşadım

*Bu gün Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə, hakim yüksəkliklərdə, ön xətdə yerləşən hərbi hissə və bölmələrində nümunəvi xidmət şəraiti yaradılıb. Bütün bunların nəticəsidir ki, səngərlərdə xidmət aparan əsgərlərimiz yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdirlər. Burada əsgərlərin mənəvi-psixoloji durumunun daha da yüksəldilməsi, dostluq və qardaşlıq hisslərinin daha da inkişaf etdirilməsi məqsədi ilə "Bir nəfər hamı üçün, hamı bir nəfər üçün" şüarı şəxsi heyətin nümunəvi xidmətinə təkan verir.*

Düşmənlə üz-üzə mövqelərdə, səngərlərdə xidmət aparan əsgərlərimizdən söz düşmüşkən qeyd edim ki, bu dəfə qonağı olduğum ünvan ön xətdəki bölmələrimizdən biridir. Bölməyə çatanda səhər yerbəyeri qurtarmış, hər kəs öz xidmətinə, döyüş növbətçiliyinə yollanmışdı. Bölmənin əsas və yardımçı binalarında, post və səngərlərdə əsgəri intizamı hökm sürür. Əvvəlcə bölmənin zabitlərindən Cavid Quliyev, Elşən Quliyev, Turan Həsənzadə, Ziya Şıxəliyev, Orxan Məmmədli və başqaları ilə hal-əhval tutub, həmsöhbət oldum.

Buradakı sinif otaqları, vətənpərvərlik mövzusundakı foto-stendlər, divar qəzetləri əsgərlərin mənəvi-psixoloji vəziyyətinin yüksəldilməsinə xidmət edir. Müsahiblərimdən biri bölmənin idman meydançasını göstərib bildirdi ki, burada fiziki hazırlıq və idman dərsləri rahat şəkildə keçməyimiz üçün müxtəlif idman qurğuları quraşdırılıb. Təbii ki, bu da şəxsi heyətin fiziki sağlamlığına öz müsbət təsirini göstərir.

Vətən torpaqlarının müdafiəsində ayıq-sayıq dayanan əsgər Elşən Allahverdiyevin hərbi xidmət haqqındakı fikirləri qısa və aydın idi: "Bir gənc kimi düşmənlə üz-üzə mövqelərdə xidmət aparıram. Bu mənim üçün qürurvericidir".

Digər əsgər Sinan Hacıyevin fikirləri isə belə idi: "Buradan valideynlərimə, yaxınlarıma və məni tanıyan hər kəsə salam göndərərək bildirirəm ki, Vətən əmanəti olan biz əsgərlər səngərlərdə ayıq-sayıq dayanaraq torpaqlarımızı yağı düşməndən canla-başla qoruyuruq. Keçirilən dərs, məşğələ və təlimlərdə fəal iştirak edərək, bilikli, bacarıqlı, tam hazırlıqlı əsgərlər kimi gücümüzü ikiqat artırırıq ki, həmişə düşmənlərdən güclü olaq, onların hər bir hiylə və təxribatının qarşısını qətiyyətlə alaq".

Digər həmsöhbətim isə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Elmar Abdullayevdir. "Komandirlərin ən yaxın köməkçisi kimi əsgərlərin döyüş postlarında ayıq-sayıq xidmət aparmaları üçün üzərimə düşən vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışıram. Döyüş hazırlığı dərslərində həvəslə iştirak etdikləri üçün əsgərlərimiz ən çətin tapşırıqları məsuliyyətlə yerinə yetirirlər. Nəticədə şəxsi heyətimiz düşmənin istənilən təxribatının qarşısını almağa qadirdir."



Bölmənin əsgərlərindən İslam, Sənan, Rasim, Ramin, Elməddin, Orxan, Ziya, Nəsib, Elşad ölkəmizin müxtəlif bölgələrindən olsalar da, onları birləşdirən dəyər azərbaycançılıq ideologiyasıdır. Bunu hərbi qulluqçularımızın hər biri öz fikri ilə təsdiqləyir. Əsgərlərimiz bir ağızdan qeyd etdilər ki, Vətən torpaqlarının müdafiəsində ayıq-sayıq dayandığımız müddətdə, bizi heç bir düşmən məğlub edə bilməz!

Hava sərt olsa da, hərbi qulluqçularımız Vətənə olan borclarını şərəflə yerinə yetirirlər. Ön xətdə, düşmənlə üz-üzə mövqelərdə yaradılan şəraitin nəticəsidir ki, əsgərlərimiz heç bir çətinliklə üzləşmirlər. Şəxsi heyətin döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlığı, fiziki dözümlülüyü xidməti uğurla aparmağa imkan verir.

Artıq bölmədən ayrılmağın vaxtıdır. Şəxsi heyətlə sağollaşıb yola düşürəm. Yolboyu bölmənin hərbi qulluqçularının hər birinin səsləndirdiyi fikirlər, onların vətənpərvərliyi barədə düşünürəm. Bir Azərbaycan vətəndaşı kimi bu söhbətlər məni də qürurlandırdı.

**Leytenant
Nəriman NƏCƏFOV,
fotolar
əsgər
Rasim İSMAYILLININDIR**

## Düşmənin növbəti təxribatının qarşısı alınıb

Fevralın 12-də Dağlıq Qarabağda Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupunun növbəti təxribat törətmək cəhdinin qarşısı alınıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, düşməni izləyən bölmələrimiz tərəfindən diversiya qrupu əvvəlcədən müəyyən edilərək atəşlə məhv edilib.

Silahlı Qüvvələrimizin bölmələri bütün cəbhə xəttində əməliyyat şəraitinə nəzarət edir.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər

Fevralın 13-dən 17-dək Tbilisi şəhərində (Gürcüstan) strateji liderlik proqramı kursu, fevralın 13-dən 24-dək Haaqa şəhərində (Niderland Krallığı) hərbi-mülki əlaqələr üzrə qərargah zabiti kursu və Qarmiş-Partenkirxen şəhərində (Almaniya Federativ Respublikası) dil testi üzrə seminar keçirilir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Ermənistanın təxribatı nəticəsində hərbi qulluqçumuz şəhid olub

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, fevralın 11-də axşam saatlarında Dağlıq Qarabağda ermənilər tərəfindən mövqelərimizin atəşə tutulmasının qarşısı alınarkən atışmada Silahlı Qüvvələrimizin hərbi qulluqçusu müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Qafarov Fuad Fərhad oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

*Ordu quruculuğu*

# Vətənin hava müdafiəçiləri

*Ölkəmizdə dövlət rəhbərliyi səviyyəsində ordu quruculuğuna göstərilən qayğı və diqqəti eynilə Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə qoşunlarına da aid etmək olar. Bu da təsadüfi deyil. Dünya ordularında baş verən inkişaf tendensiyaları hərbi quruculuğun bu aspektinə yetərincə diqqət yetirməyi zəruri edir.*





Ölkəmiz qısa zaman ərzində bu sahədə böyük inkişaf yolu keçib. Əgər keçmiş SSRİ dağıldıqdan sonra Azərbaycana düşən təyyarə və helikopterləri idarə etməyə pilot və texniki işçilər çatışmırdısa, indi Azərbaycan şahinləri səmada hər bir vətənpərvər azərbaycanlının köksünü qabardan mürəkkəb uçuş elementlərindən ibarət yüksək pilotaj nümunələri göstərirlər.

Hazırda müasir standartlara uyğun Silahlı Qüvvələrin formalaşdırılmasına üstünlük verən Azərbaycan rəhbərliyi Hərbi Hava Qüvvələrinin inkişafını da daim nəzarətdə saxlayır.

Bu gün Hərbi Hava Qüvvələri üçün kadrlar kənarda deyil, öz ölkəmizdə hazırlanırlar. İlk milli hərbi təyyarəçilərimizin buraxılışına 1997-ci ildə başlanıb. O zaman ümummilli lider Heydər Əliyev demişdi: "Çox sevinirəm ki, indi milli şahinlərimiz var və sevinirəm ki, bizim şahinlərimiz Azərbaycanın səmasını daim qorumağa, Azərbaycanın müstəqilliyini qorumağa qadirdirlər".

Bir faktı vurğulamağa dəyər ki, son zamanlar Hərbi Hava Qüvvələrinin rolu dünya ordularında xüsusilə artıb. Bu gün modern təyyarə və helikopterlərin, digər uçuş aparatlarının yaradılması, müasir rəqəmsal texnologiyaların sürətli inkişafı nəticəsində kəşfiyyat imkanlarının genişlənməsi, uzaqvuran və yüksək dəqiqliyə malik silahların silahlanmaya qəbul edilməsi orduların döyüş potensialını xeyli möhkəmlədib. Bir sözlə, hərbi aviasiya düşmənin darmadağın edilməsində əsas, bəlkə də, həlledici vasitəyə çevrilib.

Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə qoşunlarımız üçün yeni texnikaların alınması, mövcud texnikanın təmiri və modernləşdirilməsi uçuş hissə və bölmələrinin müxtəlif hava şəraitində döyüş fəaliyyəti imkanlarını artırıb. Aviasiya üzrə döyüş hazırlığının yüksəldilməsi məqsədilə yeni kompleks uçuş simulyatorları əldə edilib və şəxsi heyətin sərəncamına verilib. Yeni avadanlığın quraşdırılması nəticəsində uçuş heyətinin ixtisas hazırlığının yüksəldilməsində böyük dəyişikliklər baş verib. Eyni zamanda əvvəlki vaxtlara nisbətən təyyarə və helikopterlərin texniki resurslarına xeyli qənaət olunub.

Zenit-raket komplekslərinin modernləşdirilməsi nəticəsində döyüş texnikasının səmərəliliyi və atəş imkanları artırılıb. S-300 zenit-raket kompleksinin alınması ölkəmizin hava hücumundan müdafiə qabiliyyətinin möhkəmlənməsi baxımından böyük önəm kəsb edir. Hərbi Hava Qüvvələrinin modernləşdirilmiş döyüş texnikalarında rəqəmsal məlumat mübadiləsinin təmin edilməsi üçün yeni rabitə avadanlıqları da ordumuzun sərəncamına verilib.

Azərbaycan Hərbi Hava Qüvvələrinin inkişafından söhbət açarkən yetərincə fakt gətirmək mümkündür. Bu gün Azərbaycan ən qabaqcıl dünya ölkələrində olduğu kimi, ordu quruculuğuna bilavasitə təsir göstərən öz süni peykinə malikdir. Bundan əlavə Hərbi Hava Qüvvələrinin kəşfiyyat imkanlarını əhəmiyyətli dərəcədə artıran pilotsuz uçan aparatlarla təmin olunması mümkün hərbi əməliyyatlarda döyüş üstünlüyünü təmin etmək baxımından ordumuzun potensialını yüksəldib.

Hərbi Hava Qüvvələrində aviasiya parkının yenilənməsi, bu məqsədlə yeni və müasir texniki-taktiki xüsusiyyətlərə malik təyyarə və helikopterlərin alınması əhəmiyyətli keyfiyyət dəyişikliklərinə gətirib çıxarmışdır. Heç də təsadüfi deyil ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən çox döyüş təyyarəsi olan və döyüş potensialı daha yüksək ölkə sayılır. Hazırda Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotları MDB məkanında ən çox uçuşlar keçirmiş pilotlar hesab edilirlər.

Azərbaycanla Türkiyə arasında illik hərbi əməkdaşlıq planına əsasən, iki qardaş dövlətin HHQ-nin iştirakı ilə birgə təlimlər 2014-cü ilin sentyabrından ildə iki dəfə olmaqla - Azərbaycanda və Türkiyədə keçirilir. "TurAz Şahini" və "TurAz Qartalı" şərti adı altında təşkil edilən təlimlərdə hər iki ölkənin pilotları döyüş ustalıqlarını artırırlar. Hava manevrləri zamanı türkiyəli pilotlar Azərbaycana məxsus MiQ-29 qırıcı və Su-25 hücum, azərbaycanlı hərbi təyyarəçilər isə qardaş ölkənin F-16 qırıcı təyyarələrində uçuşlar keçirirlər.



Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında təcrübə mübadiləsini həyata keçirmək, iki ölkənin Hərbi Hava Qüvvələrinin qarşılıqlı fəaliyyətinə nail olmaq baxımından bu təlimlər böyük önəm kəsb edir.

Ötən il noyabrın 12-də irimiqyaslı təlimlər ərəfəsində cəbhə bölgəsinə səfəri zamanı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordumuz barədə dediyi sözləri eynilə Hərbi Hava Qüvvələrinə də şamil etmək olar: "Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü ordumuz var. Biz ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə - bax, burada düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik".

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə keçirilən həmin irimiqyaslı təlimlərə 50-dən çox təyyarə və helikopter cəlb edilərək təlim tapşırıqlarının yerinə yetirilməsində iştirak edirdi. Ən müasir döyüş vasitələrilə təmin edilmiş Hərbi Hava Qüvvələrinin və digər qoşun növlərinin birgə fəaliyyətinin, qarşılıqlı əlaqəsinin planlaşdırılması və təşkili, eyni zamanda müdafiə və hücum əməliyyatlarının aparılması üçün müasir silah sistemlərinin tətbiqi manevrlər zamanı qarşıya qoyulmuş başlıca vəzifələr idi.

Hərbi Hava Qüvvələrində müşahidə olunan nailiyyətlərdən söz açarkən bu sahədə mövcud infrastrukturun müasir tələblər səviyyəsində qurulmasını, şəxsi heyətin fəaliyyət və məişət şəraitinin yaxşılaşdırılmasını bildirməmək olmaz. Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə qoşunlarına məxsus hərbi hissələrdə də yeni-yeni bina və korpuslar inşa edilib, yataqxana və yeməkxanalar şəxsi heyətin ixtiyarına verilib. Bütün bunlar ordumuzun tərkib hissəsi olan, Hərbi Hava Qüvvələrinin də dövlət qayğısı ilə əhatə olunduğunun bariz nümunəsidir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrimizin hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib

*Fevralın 12-də Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə və birləşmələrdə gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Silahlı Qüvvələrin birlikləri, Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava və Hərbi Dəniz Qüvvələrinin hərbi hissələrində təşkil edilmiş mərasimlərdə öncə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Döyüş bayrağı sıra meydanına gətirilərək Dövlət himni ifa edilib. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun gənc əsgərlərə təbrik məktubu oxunub. Sonra gənc əsgərlər təntənəli surətdə hərbi andı qəbul ediblər.*





"N" hərbi hissəsinin qarşısında böyük qələbəlik var. Gənc əsgərlərin andiçmə mərasiminə gələn valideynlər, ictimaiyyət nümayəndələri, yeniyetmə və məktəblilər, müharibə veteranları nəzarət-buraxılış məntəqəsinə toplaşıblar. Mayor İftixar Mehdiyev mərasim iştirakçılarına hərbi hissənin şərəfli döyüş yolu haqqında məlumat verir.

Mərasimə gələnlər mərkəzi meydan ətrafında onlar üçün ayrılmış ərazidə yerlərini tuturlar. Mətin sıralarda dayanan övladlarına baxan valideynlərin üz-gözlərində qürur hissi var. Polkovnik Elzamin Behbudovun "Farağat, diqqət mərkəzə!" komandası eşidilir. Hamı hərbi qaydalara riayət edir. O gənc əsgərlərin hərbi andı qəbul etməyə hazır olmaları barədə general-mayor Gəray Bağırova raport verir. Ali rütbəli zabit gənc əsgərləri əlamətdar hadisə münasibəti ilə təbrik edir.

Hərbi hissənin döyüş bayrağı hərbi marşın sədaları altında meydana gətirildi. Gənc əsgərlər təyin olunmuş yerə gələrək əllərini müqəddəs bayrağımıza, döyüş silahlarına qoyaraq, Vətənə, xalqa sədaqətlə xidmət edəcəklərinə and içdilər.

General-mayor Gəray Bağırov çıxış edərək ordumuzun yüksək dövlət qayğısı ilə əhatə olunduğunu diqqətə çatdırdı. Bildirdi ki, Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən göstərilən diqqətin bəhrəsidir ki, son illər ordumuz yüksək səviyyədə inkişaf etdirilərək, müasir ordular səviyyəsində qurulub. İnamla demək olar ki, bizim ordumuz düşmən ölkənin ordusundan qat-qat güclüdür. Ötən ilin aprel hadisələri göstərdi ki, Silahlı Qüvvələrimiz işğal altında olan torpaqlarımızı düşməndən azad etməyə qadirdir. Aprel döyüşləri Silahlı Qüvvələrimizlə xalqın yenilməz birliyini bütün dünyaya göstərdi. Ordumuzun aprel zəfərinə yüksək qiymət verən Ali Baş Komandan düşmən ölkəni bu qələbəmizdən ibrət götürməyə, düzgün qərarlar qəbul etməyə çağırmışdır. Əgər işğalçı tutduğu yoldan dönməsə, Silahlı Qüvvələrimiz aprel qələbəsini davamlı etdirməklə, bütün torpaqlarımızda üçrəngli bayrağımızı dalğalandıracaqdır.

Polkovnik-leytenant Rasim Manafov çıxış edərək ölkəmizdə həyata keçirilən quruculuq işlərinin ordumuzu daha sıx əhatə etdiyindən bəhs etdi. Son illər ordu həyatında genişmiqyaslı quruculuq, abadlıq işlərinin həyata keçirildiyini, əsgəri xidmət üçün hərtərəfli şəraitin yaradıldığını dedi. Vətən uğrunda şəhid olanların dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini də xüsusi vurğuladı. Bu günlərdə şəhidlik zirvəsinə ucalmış Çingiz Qurbanova da Vətənimizin ən yüksək fəxri adının verildiyini və ordumuzun sıralarında onun minlərlə davamçısı olduğunu qeyd etdi. Hərbi andı qəbul edən gənc əsgərlərin də Vətənə sədaqətlə xidmət edəcəklərinə əminlik ifadə olundu.

Əsgər valideynləri adından Rəsmiyyə Həsənova, Kəmalə Süleymanova və başqaları gənclərə xeyir-dua verərək, xidmətdə uğurlar arzuladılar.

Gənc əsgərlər mətin addımlarla tribunanın önündən keçdilər. Hərbi hissənin əsgər marşı hamıda xoş ovqat yaratdı.

* * *

Soyuq bir qış günü... Səhər saatlarından "N" hərbi hissəsinin də qarşısında canlanma hiss olunur. Azərbaycanın müxtəlif bölgələrindən gələn insanlar buraya toplaşıblar. Adamların elə bil təbiətin soyuqluğundan xəbəri yoxdu. Qəlblərin istiliyi, gözlərdən çıxan sevinc qığılcımı yağan qarı əridir, havanın hərarətini isidir. Gözlərdəki sevinc hissi, hərbi hissənin bayramsayağı bəzədilməsi bu hadisənin böyük önəm daşıdığından xəbər verir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, andiçmə mərasimindən bir gün əvvəl hərbi hissənin yaranması günü təntənəli şəkildə qeyd edilib. Ona görə də polkovnik Qədir Nəsibov hərbi hissənin yaranmasını ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda nizami ordunun yaradılması prosesinin tərkib hissəsi hesab etdi. Polkovnik hərbi hissənin şəxsi heyətinin öz vəzifə borclarını layiqincə yerinə yetirdiyini, zabit və gizir heyətinin bilik və təcrübələrini artırdığını, döyüş hazırlığının, hərbi intizamın yüksək səviyyədə saxlanıldığını qeyd etdi. "Hərbi hissənin şəxsi heyəti beynəlxalq səviyyədə Kosovoda Sülhü Dəstəkləmə əməliyyatlarında, İraqda keçirilən "İraqa azadlıq" əməliyyatlarında yaxından iştirak edib. 2002-ci ildən bu günədək bir bölüyümüz Əfqanıstan İslam Respublikasında Qətiyyətli Dəstək Missiyasını layiqincə yerinə yetirməkdədir. İnanıram ki, hərbi hissəmizin şəxsi heyəti döyüş hazırlığının və hərbi intizamın yüksəldilməsi üçün bütün bacarıqlarını bundan sonra da əsirgəməyəcəkdir." Natiq onu da bildirdi ki, Azərbaycan Ordusunu təkmilləşdirmək, ordunun döyüş və peşəkarlıq səviyyəsini artırmaq sahəsində bu gün ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurlu addımlar atılır. Ordunun döyüş qabiliyyəti daha da yüksəldilir, maddi-texniki bazası möhkəmləndirilir, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür.

Hərbi hissə komandirinə şəxsi heyətin əlamətdar gün münasibətilə sıra meydanında düzüldüyü barədə məruzə edildikdən sonra valideynlərin də səbirsizliklə gözlədiyi an gəlib çatdı. Gənc əsgərlər Vətən qarşısında borclarını layiqincə yerinə yetirəcəklərinə and içdilər. Bu an insanların gözlərində, xüsusilə ana və bacılarımızın gözlərində gilələnən sevinc göz yaşları diqqətimizdən yayınmır.



Polkovnik Qədir Nəsibov, valideynlərdən Vüqar Zülfüqarov, Mahirə Məmmədova və gənc əsgər Osman Dadaşov çıxışları zamanı ordu həyatına yeni qədəm qoyan gənc əsgərlərimizə Azərbaycan xalqına, dövlətinə sədaqətlə xidmət edəcəklərinə, Vətən uğrunda döyüşlərə həmişə hazır olacaqlarına inandıqlarını qeyd etdilər.

Mərasim şəxsi heyətin tribunanın qarşısından nizami keçidi ilə başa çatdı. Valideynlər əsgər yataqxanasında, hamam-camaşırxana kompleksində və əsgər yeməkxanasında yaradılan şəraitlə yaxından tanış oldular.

Fərid Kərimov bacısı oğlu Yusif Əliyevin andiçmə mərasimində iştirakından məmnun olduğunu bildirdi. "Mən əsgərlərin gözlərində böyük bir ruh yüksəkliyi hiss etdim. Nəinki əsgərlərimizdə, bütövlükdə cəmiyyətimizdə ruh yüksəkliyinin böyük olmasında aprel döyüşlərinin də rolunu qeyd etmək lazımdır."

Yevlax rayonundan gələn Hüsaməddin Hüseynov bu günün onun da yaddaşında silinməz iz buraxdığını bildirdi: "Oğlum bu gün Vətən qarşısında borcunu layiqincə yerinə yetirəcəyinə and içdi. Bu anları xoşbəxt anlar kimi hər zaman xatırlayacam."

Qubadlı rayonundan olan İman Əliyev nəvəsi İmanın öz dövlətinin hərbi qulluqçusu olduğundan fəxr duyduğunu dedi: "Eyni adı daşıdığımızdan elə hesab edirəm ki, nəvəm mənim simamda millətimi, xalqımı, dövlətimi qoruyur. Özüm də könüllülər sırasında torpaqlarımızın işğaldan azad edilməsi üçün az əmək sərf etməmişəm. Qubadlıda, Füzuli istiqamətində, Zəngilanda gedən döyüşlərin iştirakçılarından olmuşam. O dövrlə bu dövrü, ümumiyyətlə, müqayisə etmək istəməzdim. Yaradılan şərait onu deməyə əsas verir ki, keçmiş MDB respublikalarında belə səviyyədə hərbi hissə azdır, bəlkə də yoxdur."

Əsgər nənəsi Mahirə Hacıyeva artıq üçüncü dəfədir bu hissləri keçirdiyini qeyd etdi: "İki oğlumun andiçmə mərasimində iştirak etmişəm. İki dəfə bu hissi yaşamışam. Düzünü deyim ki, bu hissi dillə ifadə etməyə çətinlik çəkirəm. Bu üçüncüsüdür. Atalar yaxşı deyib: "Dövlətdə dəvə, övladda nəvə". Ona görə də bu dəfə sevinc göz yaşlarıma hakim ola bilmirəm."

Bütün valideynlər Prezident, Ali Baş Komandan İlham Əliyevin göstəriş və tövsiyələri əsasında Müdafiə Nazirliyi rəhbərliyinin ordumuzda həyata keçirdikləri islahatların müsbət nəticələr verdiyini qeyd etdilər və ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

**(Ardı 5-ci səhifədə)**

# Silahlı Qüvvələrimizin hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib

(Əvvəli 4-cü səhifədə)

Qar yağır. Sazaqdı. Bu günün sevinci, qüruru bir azdan hərbi and içəcək gənc matrosların da, onların valideynlərinin də sevincini kükrədib. Baxışlarını gənc matroslardan yayındıra bilməyən anaya da, bir qədər aralıda anasına sığınmış azyaşlı uşağa da, narahatlıqla gah göy üzünə, gah da sıra meydanında dayanmış matroslara baxan ataya da elə gəlir ki, zaman ləng ötüşür...

Analar qürurla, qədərsiz sevgilərlə vaxtın ötüşəcəyi anın intizarındadı. Analar əsgər oğlunun boynuna sarılacaq. Gözdolusu baxacaq. Əli oğlunun saçlarının tumarına dönəcək. Nəsə soruşacaq. Əslində, soruşulanlar sorğu olmayacaq, soruşulanlar oğulun doğma səsinə qəribsədiyi günlərin ödənci olacaq. Arada dönüb sağına-soluna baxacaq. Baxışları adamların tünlüyündə bayaq söhbətləşdiyi əsgər anasını arayacaq. Bir az əvvəl ona oğlu haqqında danışmışdı. İndi ondan şirin kəlmələr eşitmək istəyəcək, şübhəsiz...

Hamı sıra meydanında nizami şəkildə dayanmış matroslara baxır. Analar əzizini ayırd etməyə çətinlik çəkir: hamısı eyni mundirdədi, hamısı eyni ovqat yaşamaqdadı...

13-14 yaşlı oğluyla nə haqdasa danışan ana diqqətimi çəkir. Mənə belə gəlir ki, uşaq sırada dayanmış matroslar arasında qardaşının hansı olduğunu öyrənmək istəyir. Ana həyəcanını sovuşdurub, "Hamısı qardaşındı, ay oğul. Qardaşının yoldaşları da sənə qardaşdı. Fəhminlə bir azdan görüşəcəksən. Səbr elə..."

Az sonra öyrənirəm ki, Mətanət Əlibəyliydi. Bayaq kiçik oğluna dediklərini xatırladıram. Bir az həyəcanla, bir çəkingənliklə deyir ki, əlbəttə, balamın xidmət yoldaşları da mənim balamdı. Onların analarının da mənim oğlumu oğlu bildiyinə şübhəm yoxdu. Bizim oğullarımız indi Vətənin oğludu...

Qürura söykənmiş kəlmələrin doğmalığı, duyğusallığı mənim də, eşidənlərin də ürəyini tellendirir. Azərbaycan əsgərlərinin hamısını oğlu bilir ana. Bu, azərbaycanlı ananın ürəyinin böyüklüyünün təsdiqidi...



Ani olaraq susur. Sonra sıra meydanına sarı baxır.

Mətanət Əlibəyliylə kəlmələşirəm:

- Bir azdan oğlum Fəhmin də hərbi and içəcək. Sevinirəm. Sevinirəm ki, Fəhminim Vətənin xidmətindədir. Onun da, matros yoldaşlarının da nümunəvi xidməti ilə ata-analarına başucalığı gətirəcəyinə inanıram. Onlar indi Vətənin oğludur...

Orta yaşlı iki atanın söhbətləşməsi diqqətimi çəkir. Həmsöhbət oluruq:

- Mən Qazaxdanam, bu, Neftçaladan. Oğullarımızın hərbi xidməti bizi bir-birimizə tanıtdı, yəqin ki, dostluğumuzun da bünövrəsi elə burada yaranacaq.

Düşünürəm ki, hərbi xidmət insanlar arasında ünsiyyət də yaradır...

...Tədbiri 3-cü dərəcəli kapitan Elvin Rzayev açır.

2-ci dərəcəli kapitan Hümmət Bəndiyev son vaxtlar Silahlı Qüvvələrimizdə həyata keçirilən islahatlardan, onun nəticələrindən danışaraq qeyd edir ki, bu islahatlar Hərbi Dəniz Qüvvələrinin şəxsi heyətinin də döyüş hazırlığının yüksəlməsinə səbəb olub. "Biz Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə hazırıq. Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun qəhrəmanlığı hər kəsin mənəvi-psixoloji hazırlığına əhəmiyyətli təsir göstərəcək. Qəhrəmanların ömür yolu həmişə örnək olub. Bir azdan hərbi and içəcək gənc matrosların da Vətəni Çingiz Qurbanov kimi sevəcəklərinə inanırıq".



Gənc matroslar hərbi and içir: "Mən, Azərbaycan Respublikasının vətəndaşı...". Kəlmələr toplaşanları duyğulandırır. Bu kəlmələrin qar dənələrini əritmək gücündə olduğunu duymaq çətin deyil...

Gənc matroslar adından çıxış edən Rafil Əsədov Hərbi Dəniz Qüvvələrində xidmət etməsindən qürur duyduğunu bildirir:

- Vətənə xidmət hər birimizin müqəddəs borcudur. Sülh danışıqları baş tutmasa, torpaqlarımızı işğaldan döyüşlə azad edəcəyik. Biz də Ali Baş Komandanın əmrinə hazırıq. Bunun üçün yüksək döyüş hazırlığına malik olmalıyıq. İlkin hazırlıq uğurla başa çatdı. Bundan sonra da hərbi bilikləri dərindən öyrənəcəyik.

Sizi əmin edirəm ki, hərbi intizamın tələblərinə ciddi əməl edəcək, zabitlərin, komandirlərin əmr və göstərişlərini sözsüz və vaxtında yerinə yetirəcəyik.

Valideynlər adından Sevil Alısəfərova çıxış edərək gənc matrosları bu yaddaqalan gün münasibətilə təbrik edir.

1-ci dərəcəli kapitan Saleh Kələntərov Hərbi Dəniz Qüvvələrində xidmətin xüsusiyyətlərindən, dəniz sərhədlərimizin ciddiyyətiylə qorunduğundan, matrosların hərbi peşələri həvəslə öyrəndiklərindən danışaraq deyir:

- Aprel döyüşləri təsdiqlədi ki, Azərbaycan Ordusu güclüdür. Sizə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bir fikrini xatırladıram: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır". Bu sözlər təbii ki, bu gün hərbi and içən matroslarımızı da qürurlandırır. Onlar da Azərbaycanımızın müdafiə qüdrətinin artması üçün hərbi biliklərə daha böyük həvəslə, istəklərlə yiyələnəcəklər.

Sonra gənc matroslara xitabən deyir:

- İnanıram ki, siz də belə xidmət edəcəksiniz. Xidmətiniz müddətində bu ənənəni siz də yaşadacaq, Ali Baş Komandanın, Müdafiə nazirinin, Hərbi Dəniz Qüvvələri komandanlığının əmr və göstərişlərini məsuliyyətlə yerinə yetirəcəksiniz.

Tədbir təntənəli keçidlə başa çatır. Bu keçid gənc matroslara etimad keçididi sanki...

Bu mətin yerişin ahəngdarlığı əminlikdi - xalqın orduya inamıdı...

...Qar yağır. Soyuqdu. Heç kim soyuğu hiss etmir; tədbir soyuğu-şaxtanı "yumşaldıb"...

* * *

Havanın soyuq və şaxtalı keçməsinə, qarın yağmasına baxmayaraq qonaqlar, həmçinin əsgər valideynləri "N" hərbi hissəsində də toplaşıb.

Ən müasir standartlara cavab verən hərbi hissənin sıra meydanında nizamlı şəkildə düzülən gənc əsgərlər sevinc və qürur hissləri keçirirlər.



Döyüş bayrağının sıra meydanına gətirilməsi ilə andiçmə mərasimi başlayıb.

Andiçmə tədbirini giriş sözü ilə açan polkovnik Qurban Qurbanov gənc əsgərləri əlamətdar gün münasibətilə təbrik edib, onlara xoş arzularını çatdırıb: "Azərbaycan əsgəri tarix boyu qorxmazlığı, mərdliyi ilə nümunə olub. Sizlərin də nümunəvi xidmət edəcəyinizə, Vətənə layiqli övlad olaraq hərbi biliklərinizi daim artıracağınıza, döyüş meydanında düşməni məhv edəcəyinizə inanıram. Bu əlamətdar gün illər keçsə də, nə siz əsgərlərin, nə valideynlərinizin, nə də bizlərin xatirəsindən silinməyəcək. Çünki bu gün and içərək Vətən qarşısında övlad borcunuzu yerinə yetirəcəksiniz".

Gənc əsgərlər sıra meydanında yerləşdirilən silahların ətrafına nizami addımlarla yaxınlaşaraq, bir əli silahda, bir əli isə əsgər yoldaşında Vətənə sədaqət andı içiblər.

Milli Qəhrəman general-leytenant Rövşən Əkbərovun gənc əsgərlərə ünvanlanan təbrikində hər bir əsgərin and içərək Vətən keşiyində ləyaqətlə duracağına inam ifadə edilib. Xüsusi olaraq ümummilli lider Heydər Əliyevin sözləri təbrikdə qeyd olunub. "Orduda xidmət etmək Azərbaycanın hər bir vətəndaşının şərəfli borcudur. Müstəqil Azərbaycan Respublikasının ordusunda xidmət etmək hər bir azərbaycanlı üçün böyük iftixardır. Fəxr edə bilərsiniz. Fəxr etməlisiniz ki, xalqımız sizə bu şərəfli vəzifəni etibar edibdir".

Əsgər anası Nazlı Hacıyeva əlamətdar gün münasibəti ilə hamını təbrik edib, bütün əsgərlərə ana Vətəni qorumağı tövsiyə edib. Həmçinin yaradılmış şəraitə, əsgərlərə göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova bütün valideynlər adından minnətdarlığını bildirib.

Tədbirdə çıxış edən Sumqayıt şəhər İcra Hakimiyyətinin nümayəndəsi Həzi Əkbərov, zabitlər və qonaqlar ordu sıralarına yeni daxil olmuş gənclərimizin Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrə bundan sonra da sadiq qalacaqlarına, dövlətçiliyimizin qorunması, inkişafı və tərəqqisi naminə əllərindən gələni əsirgəməyəcəklərinə inandıqlarını bildiriblər.

Mərasim şəxsi heyətin tribuna önündən təntənəli keçidi ilə başa çatıb.

**"Azərbaycan Ordusu"**

# Dövlətin qayğısı, xalqın sevgisi



2017-ci ilə ordumuz inamla, əzmlə, ən əsası isə uğurla, xoş xəbərlə başladı. İlk olaraq yanvarın 6-da Silahlı Qüvvələrdə şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, aviabazalarımızın birində yeni inşa edilmiş növbəti yaşayış binasının açılışı həyata keçirildi. Bir neçə gün sonra, yanvarın 11-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində dövlət başçısı Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsindəki əsgər yataqxanasının və məişət kompleksinin, yanvarın 23-də isə digər bir hərbi hissədə yeni inşa edilmiş hərbi şəhərciyin açılışında iştirak etdi.

Təbii ki, belə xoş ovqatla başlanan xidmət ili fərəh gətirməklə yanaşı, zabit və əsgərlərimizi daha böyük uğurlara, qələbələrə ruhlandırır. Lakin xüsusi olaraq qeyd etmək lazımdır ki, hərbçilərimiz, həmçinin bütün vətəndaşlar üçün bu ilin ən qürurdoğurucu məqamı, yanvarın 10-da Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ordumuz haqqında səsləndirdiyi fikirlərlə yadda qaldı: "Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Biz hərbçilərimizlə fəxr edirik. Bu döyüşlər zamanı Azərbaycan xalqı bir daha öz birliyini nümayiş etdirmişdir". Bu, Ali Baş Komandan tərəfindən ordumuzun fəaliyyətinə verilən böyük qiymətdir.

Ümummilli lider Heydər Əliyev tərəfindən başlanan mütəşəkkil ordu quruculuğu prosesi bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Ordu quruculuğu məsələləri prioritet elan edilib, ilbəil hərbi xərclər artırılır, göstərilən qətiyyət və qayğı nəticəsində, ordunun təminatı, hərbçilərin sosial-məişət şəraiti yaxşılaşdırılır. Həyata keçirilən uğurlu ordu quruculuğu prosesi sayəsində hərbi xidmətin bütün sahələrində hər kəs, xüsusən də hərbçilər gündəlik xidmətlərində yeniliklərin şahidi olurlar. Ordumuzun qüdrətlənməsi sahəsində həyata keçirilən bu təqdirəlayiq fəaliyyət həm də torpaqlarımızın azad edilməsi istiqamətində dövlətimizin sərgilədiyi qətiyyət və iradənin bariz nümunəsidir.

Bayramlarda, əlamətdar günlərdə, müşavirələrdə və diplomatik görüşlərdə dövlətimizin başçısı Azərbaycan Ordusunun ünvanına xoş sözlər səsləndirir. Bu fikirlər respublikamızın təhlükəsizliyinə, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasına daim xüsusi diqqət yetirildiyini, ordumuza olan inam və ehtiramı nümayiş etdirir. Xüsusilə də ötən ilin aprelində keçirilən əks-hücum əməliyyatından sonra əldə edilən qələbə sayəsində ordumuz və hərbçilərimiz haqqında səsləndirilən fikirlər qəlbimizdə qürur, fərəh hissi doğurur, hər birimizi yeni qələbələrə ruhlandırır.

Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Ali Baş Komandan İlham Əliyev vurğulamışdı: "2016-cı ilin aprel ayında Azərbaycan dövləti və Azərbaycan Ordusu işğalçılara çox ciddi zərbələr vurmuşdur. Növbəti erməni hərbi təxribatına cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatı keçirmiş və minlərlə hektar torpağı işğaldan azad etmişdir. Bu, bir daha dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərir". Bu fikirlər ordumuzun qüdrətinin ifadəsidir. Silahlı Qüvvələrin müasir silah və texnika ilə təmin olunması, hərbçilərin sosial-məişət şəraitinin günbəgün yaxşılaşdırılması istiqamətində görülən işlər bütün vətəndaşlar tərəfindən minnətdarlıq hissi ilə qarşılanır.

Təbiidir ki, dövlət rəhbəri tərəfindən verilən qiymət zabit və əsgər heyətinin üzərinə böyük məsuliyyət qoyur, xidmətdə uğurlara nail olmağa səsləyir. Onu da xüsusi qeyd etmək lazımdır ki, apreldə əldə edilən qələbə bütün xalqımızın qələbəsidir. Buna görə də qələbə naminə canlarından keçən şəhidlərimizə, Silahlı Qüvvələrimizin kollektivinə, dünya azərbaycanlılarına, hər kəsə bu qələbə sevincindən pay düşür.

Bu uğurun əldə olunması zamanı yaralanmış silahdaşlarımıza, onlara mənəvi dayaq olan insanlara, övlad böyüdüb hərbi xidmətə yollayan valideynlərə "sağ ol" düşür. Çünki özləri ata olan döyüşçülərimiz Vətən, torpaq, valideyn və körpələrinin xoşbəxt gələcəyi üçün vuruşduqlarına, haqq yolunda olduqlarına inanırlar.

Hər kəs əmin ola bilər ki, dövlətimizin diqqət və qayğısına, xalqımızın sevgi və etibarına cavab olaraq Azərbaycan Ordusunun bütün şəxsi heyəti bundan sonra da göstərilən etimadı doğruldacaqdır.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Müdafiə Nazirliyi ilə Ombudsman Aparatı birgə tədbirlər planı imzalayıb

Müdafiə Nazirliyi ilə Ombudsman Aparatı arasında 2017-ci il üçün birgə tədbirlər planı imzalanıb. Plana əsasən, nəzərdə tutulan tədbirlərin icra vaxtı, yeri, məsul qurumlar və şəxslər müəyyən edilib.

İl ərzində Müdafiə Nazirliyinin tabeliyində olan idarələrdə, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində Ombudsman Aparatının hərbi qulluqçuların hüquqlarının müdafiəsi sektorunun əməkdaşlarının iştirakı ilə tədbirlər keçiriləcək.

Müxtəlif kateqoriyalardan olan hərbi qulluqçuların və mütəxəssislərin iştirakı ilə təşkil olunacaq tədbirlərdə müxtəlif mövzularda məruzələr dinləniləcək və fikir mübadiləsi aparılacaq.

## Müdafiə Nazirliyi ilə Azərbaycan Yazıçılar Birliyi arasında illik tədbirlər planı imzalanıb

Müdafiə Nazirliyi ilə Azərbaycan Yazıçılar Birliyi arasında 2017-ci il üçün birgə tədbirlər planını imzalanıb. Sənədə əsasən keçiriləcək tədbirlərin yeri, icra müddəti, icraya məsul qurumlar və şəxslər müəyyən edilib.

İl ərzində Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə, təhsil və tədris müəssisələrində şair, yazıçı və elm xadimlərinin iştirakı ilə görüşlər, "dəyirmi masa"lar keçiriləcək. Bundan əlavə, vətənpərvərlik mövzusunda müsabiqələrin, şeir saatlarının, müharibəyə dair əsərlərin oxucu müzakirələrinin təşkili və digər fəaliyyətlər də nəzərdə tutulub.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***14 fevral 2017-ci il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 22 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Mərzili, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Tərtər, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Əməliyyat şəraitinə uyğun olaraq bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Tibb Baş İdarəsində ABŞ nümayəndə heyəti ilə görüş olub



Fevralın 14-də Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi, tibb xidməti general-mayoru Natiq Əliyev ölkəmizdə səfərdə olan ABŞ-ın Avropa Komandanlığının təmsilçisi Uilyam Samnerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə tərəflər hərbi tibb sahəsində indiyədək icra olunan layihələri, eləcə də kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması, təhlükəli maddələrlə bağlı insidentlərə cavab tədbirləri və təbii fəlakətlərə hazırlıq üzrə mövcud proqramları müzakirə ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**foto**
**Nurlan MEHDİYEVİNDİR**

# Milli Məclisdə "Hərbi vəziyyət haqqında" qanun layihəsinə ikinci oxunuşda baxılıb

***Fevralın 14-də Milli Məclisin plenar iclasında "Hərbi vəziyyət haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirə edilib.***

AZƏRTAC xəbər verir ki, qanun layihəsi barədə Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məlumat verib.

Bildirilib ki, qanun layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin birinci hissəsinin 8-ci bəndinə uyğun olaraq Azərbaycanın bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyətin elan və ləğv edilməsi, hərbi vəziyyətin qüvvədə olma müddətinin uzadılması, hərbi vəziyyət rejiminin təmin edilməsi qaydasını, cəbhəboyu zonada hərbi hissələrin yerləşdiyi ərazilərdə rejimin xüsusiyyətlərini, hərbi vəziyyət şəraitində fiziki və hüquqi şəxslərin hüquqlarının təminatını müəyyən edir.

Hərbi vəziyyət haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və digər normativ-hüquqi aktlardan ibarətdir.

Bildirilib ki, bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar, Cinayət və Mülki Məcəllələrə uyğun məsuliyyət daşıyırlar. Hərbi vəziyyətin elan edilməsi haqqında Azərbaycan Prezidentinin fərmanı Azərbaycan Respublikasının Milli Məclisinə daxil olduqdan sonra 48 saat müddətində növbəti və növbədənkənar sessiyalar dövrünün olub-olmamasından asılı olmayaraq Milli Məclisin iclası keçirilir, iclasda fərmanın təsdiqi məsələsinə növbədənkənar baxılır və deputatların 63 səs çoxluğu ilə müvafiq qərar qəbul edilir və Milli Məclis tərəfindən təsdiq edilmədikdə qüvvəyə minmir. Bu barədə əhaliyə dərhal məlumat verilir.

# Qəhrəmanın xatirəsinə



Bu günlərdə C.Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı İbrahimov Rasim Səxavət oğlunun xatirəsinə həsr olunmuş basketbol turniri başlanıb. Tədbir açıq elan olunduqdan sonra mərasim iştirakçıları ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların ruhunu bir dəqiqəlik sükutla yad etdilər. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

C.Naxçıvanski adına Hərbi Liseyin idman rəisi Fərhad Əliyev çıxış edərək qəhrəman döyüşçü haqqında tədbir iştirakçılarına ətraflı məlumat verərək dedi:

- İbrahimov Rasim Səxavət oğlu 18 aprel 1962-ci ildə Bakı şəhərində neftçi ailəsində dünyaya göz açmışdı. 131 saylı orta məktəbi bitirmişdi. Rasim hələ kiçik yaşlarından hərbçi olmaq arzusu ilə yaşayıb və Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirib.

Bakı Ali Hərbi Ümumqoşun Komandirlər Məktəbində oxuduğu dövrdə zabitlik peşəsinin sirlərinə dərindən yiyələnib. 1983-cü ildə Almaniyada motoatıcı taqımın komandir müavini kimi qulluğa başlayan gənc zabit Vətəndən uzaqda olmasına baxmayaraq, mənsub olduğu xalqın adını həmişə şərəflə qoruyub. Qarabağ müharibəsi başlayanda Füzuli rayonunun işğalçılardan qorunmasında iştirak edib.

Cəsur komandir ağır döyüşlərin birində öz canından keçərək silahdaşlarının mühasirədən çıxmasına kömək edir. Son anda düşmən əlinə keçməmək üçün əl qumbarasını sinəsinə sıxır. Həm özü şəhid olur, həm də bir neçə erməni işğalçısını məhv edir. Son anında "Azərbaycan zabiti heç vaxt düşmənə təslim olmaz!" - deyir.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli fərmanı ilə döyüşlərdə göstərdiyi şücaətə və igidliyə görə İbrahimov Rasim Səxavət oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib. Rasim kimi qəhrəmanlar gələcəyin zabitlərinə örnəkdir. Biz belə cəsur oğullarla fəxr edib öyünürük. Qəhrəmanın xatirəsinə həsr olunmuş bu yarış da ona hörmətimizin, ehtiramımızın ən bariz ifadəsidir.



Sonra qəhrəmanın xatirəsinə həsr olunmuş yarışa start verildi. İlk olaraq 8-ci və 3-cü bölüklərin komandaları üz-üzə gəldilər. İdmançılar təmsil etdikləri komandalarını irəli çıxarmaq üçün öz bacarıqlarını əsirgəmirdilər. İlk qarşılaşma 8-ci bölüyün üstünlüyü ilə başa çatdı. Yarışa 9 komanda qatılıb. Ümumilikdə isə bu birincilikdə 108 idmançı öz gücünü sınayacaq. 20 gün davam edəcək xatirə turnirinin sonunda qaliblər medal, fəxri fərman və keçici kubokla mükafatlandırılacaq.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

*Nümunəvi xidmət*

# Döyüşdə rabitənin də öz yeri var

*Hər bir peşənin özəlliyi var. Peşəkar olmaq üçünsə yiyələndiyin peşəni sevməlisən və onun incəliklərini səvə-səvə öyrənməlisən. Belə olduqda əsl peşəkar kimi formalaşa bilərsən.*

Hərbidə peşələr çoxdur; mühəndis, topçu, mexanik-sürücü və s. Bu peşələr bir-biri ilə sıx əlaqəlidir. Məqsəd şəxsi heyətin yüksək döyüş hazırlığının əldə edilməsidir. Beləliklə, hərb sahəsində mövcud olan ixtisasları mükəmməl öyrənmək hər bir döyüşçünün qarşısında duran başlıca vəzifədir.

İstər təlimin, istərsə də döyüşün idarə edilməsində rabitənin əhəmiyyəti böyükdür. Zabit Rüstəm Məmmədov söhbətimizdə bildirdi ki, həm müdafiəni, həm də hücum əməliyyatını səyyar rabitə olmadan idarə etmək mümkünsüzdür. Yenilənən rabitə avadanlıqlarının üstünlüyü ondadır ki, vaxt itkisinə yol vermədən komandaları bütün bölmələrə dəqiq ötürmək mümkündür. Belə olan halda döyüşdə uğur əldə etmək də asan olur.

Düşmənlə təmas xəttində yerləşən postdayıq. Burada rabitə xidməti də diqqətimi cəlb etdi. Öyrəndim ki, əsgər Seyidbaba Heybətov rabitə ixtisası üzrə yetərli biliklərə malik döyüşçüdür. Rabitəçi əsgərlə səngərdə görüşüb qısa söhbət etdim. Şamaxı şəhərində anadan olan döyüşçü on aydan artıqdır ki, hərbi xidmətdədir. Vətənə övlad borcunu yerinə yetirməyə gəldiyi ilk gündən bu ixtisası öyrənmək üçün müvafiq kursa göndərildiyini bildirdi. Rabitəçi kursunu müvəffəqiyyətlə başa vurandan sonra hazırda xidmət etdiyi bölməyə göndərilib. Bu ixtisasın sirlərini yüksək səviyyədə mənimsəməsinə marağının necə yarandığını öyrənirəm. Əsgər S.Heybətov deyir:



- Bu bir təsadüf nəticəsində olub desəm, yanılmaram. Hərbi xidmətə gəldiyim ilk günlər idi. Gənc əsgərlər arasında peşə seçimi aparılanda müxtəlif bölmələrdən gələn zabitlər ixtisaslar üzrə əsgərləri sorğu-sual edirdilər. Rabitəyə aid bir neçə suala doğru cavab verdim. Sonra dedilər ki, səndən yaxşı rabitəçi çıxar. Və beləliklə, məni rabitəçi ixtisası üzrə kursa yazdılar. İlk gündən qarşıma məqsəd qoydum ki, bu peşənin sirlərini mükəmməl öyrənim.

Məqsədi, məramı nümunəvi xidmət etmək olan əsgər S.Heybətov ordu sıralarında rabitəçi peşəsinin sirlərini dərindən öyrənib. Öyrəndikcə bu peşəyə marağı daha da artıb. Bütün bölmələrlə müntəzəm əlaqə saxladığını deyən əsgər bunun nə qədər vacib olduğunu da izah etdi. "Döyüşdə bölmələrin idarə olunmasında rabitənin xüsusi yeri var. Səyyar rabitə qurğusu düşmən haqqında məlumatın verilməsi (alınması), həmçinin döyüş zamanı bölmənin hansı istiqamətdə hərəkət etməsini çatdırmaq üçün ən etibarlı vasitədir".

Bu gün ordumuzda rabitə sistemi yetərincə inkişaf edib. Ən müasir rabitə avadanlıqlarından istifadə edilir. Ordumuzun ilk yarandığı dövrdə, Qarabağ müharibəsinin odlu-alovlu illərində rabitə üzrə peşəkar mütəxəssislərin olmaması bu sahədə də ciddi problemlərə yol açmışdı. Bu gün isə hərbi xidmətin bütün sahələrində kifayət qədər peşəkar hərbçilər yetişib. Ötən ilin aprel döyüşlərində rabitəçilərimiz də xüsusi fəallıq nümayiş etdirdilər. Bu bir daha onu göstərdi ki, ordumuzda rabitə sistemi lazımınca təşkil olunub.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## Bağdadda minalanmış avtomobilin partladılması nəticəsində 4 nəfər ölüb



Fevralın 14-də İraqın paytaxtı Bağdad şəhərinin cənub hissəsində minalanmış avtomobil partladılıb. Hadisə nəticəsində azı 4 nəfər həlak olub, 14 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb.

İnsident Bayaa rayonunda baş verib. Partlayışın məsuliyyətini hələlik heç bir qruplaşma üzərinə götürməyib.

Qeyd edək ki, İraqın bir hissəsini nəzarəti altına alan İŞİD qruplaşmasının fəaliyyəti ilə əlaqədar ölkədə gərgin vəziyyət davam edir. 2014-2015-ci illərdə silahlılar Ənbar əyalətinin çox hissəsini ələ keçirib. Lakin son zamanlar İraqın hökumət qüvvələri bəzi rayonları, o cümlədən Ramadi və Fəllucə şəhərlərini geri almağa nail olub.

## Pakistanda baş vermiş partlayış nəticəsində azı 16 nəfər ölüb



Pakistanın Laxor şəhərinin Pəncab əyalətinin Məclisi yaxınlığındakı Feyzal meydanında mitinq zamanı baş verən güclü partlayış nəticəsində azı 16 nəfər ölüb.

Partlayış nəticəsində 30-a yaxın insanın xəsarət aldığı bildirilir.

## Salonikidə İkinci Dünya müharibəsindən qalan bomba zərərsizləşdirilib



Yunanıstanın Saloniki şəhərindəki yanacaqdoldurma məntəqələrindən birində tapılan və İkinci Dünya müharibəsinə aid 250 kiloqram çəkisi olan aviasiya bombası dünən zərərsizləşdirilib.

Bomba yerin altından çıxarılıb və partlama mexanizmi dayandırılıb. İkinci mərhələdə bombanı təhlükəsiz yerə aparmaq nəzərdə tutulub. Bombanın tapıldığı ərazidən 72 min sakin təxliyə edilib.

Aparılan araşdırmalardan sonra məlum olub ki, bomba 1943-cü il dekabrın 5-də İngiltərə aviasiyası tərəfindən limanda və vağzalda yerləşən alman məntəqələrinin üzərinə atılıbmış.

## "Fərat qalxanı" əməliyyatının 173-cü günündə İŞİD-in 42 üzvü zərərsizləşdirilib



Türkiyə Silahlı Qüvvələrinin İŞİD-ə qarşı həyata keçirdiyi "Fərat qalxanı" əməliyyatının 173-cü günündə 42 terrorçu zərərsizləşdirilib.

Gün ərzində terror təşkilatına aid 207 hədəfə atəş zərbələri endirilib. İŞİD yaraqlıları ilə atışmalarda 1 türk əsgəri şəhid olub, daha 3-ü yaralanıb.

Türkiyə Silahlı Qüvvələrinin avqustun 24-dən etibarən həyata keçirdiyi əməliyyat uğurla davam etdirilir.

## Fransa Alplarında 9 nəfər qar uçqununa düşüb, həlak olanlar var



Fransa Alplarında xizəkçilərdən və yerli bələdçidən ibarət 9 nəfərlik qrup qar uçqununa düşüb. İnsident nəticəsində azı 4 nəfərin həlak olduğu bildirilir. İnsident günorta saatlarında Savoya departamentində yerləşən Tin dağ kurortu yaxınlığında dəniz səviyyəsindən 2100 metr hündürlükdə baş verib. Hadisədən təxminən bir saat sonra xilasedicilər iki sağ qalmış xizəkçini və iki nəfərin cəsədini aşkarlayıblar.

Xizəkçilər trasın eniş üçün nəzərdə tutulan hüdudlarından kənarda olublar. Hadisənin başvermə səbəbləri araşdırılır.

**AZƏRTAC-ın materialları əsasında**

*Könlüm şeir istəyir*

# Əsgər Vətənini sevir də, qoruyur da

*Şeir duyğudu.*

*Hər duyğunu şeirləşdirmək mümkün deyil. Şeirləşdirilmiş duyğular oxucunun ürəyini titrədir, düşündürür. Bu baxımdan ictimailəşmiş duyğuların informasiya yükü dünyaduyumunun formalaşmasında, milli-xəlqi ruha uyarlığında mühüm əhəmiyyətə malikdir.*

*Vətəni sevirik.*

*Şairlər Vətən sevgisini sözlə ifadə eləyir. Oxuyuruq. Vətənə şairin poetik sözüylə bir az da yaxından bağlanırıq. Bu bağlılığı yaratmaq da vətənpərvərlikdi.*

*Vətənə, torpağa ad olan şeirlər indi oxucuya daha gərəklidi; torpaqlarımızın işğaldan azad olunması zərurəti hər birimizi Böyük Qələbəyə səfərbər etməlidi, edir də. İşğalda qalan ərazilərimizin ağrıları sözə gətirilir, şeir biçimində verilir. Bu ağrıları şeir-şeir, misra-misra yenidən yaşayan əsgərin qələbə əzmi daha dönməz olur.*

*Azərbaycan əsgərinin mənəvi hazırlığında əhəmiyyətli olacağına şübhə etmədiyimiz bir neçə şeiri dərc edirik. Bu şeirlər də deyir ki, sevin Vətəni, qoruyun Vətəni. Bu şeirlər həm də bir daha inandırır ki, Azərbaycan əsgəri Vətənini sevir də, qoruyur da... Təqdim etdiyimiz şeirlər bu inamın təzahürüdü.*

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

Yusif Nazim Ərəbsoy

### Bayraq

Varsansa,
Deməк məmləkətim var!
Yaşa bayraq!
Sancıl Şuşada torpağa, bayraq,
daşa, bayraq!..
Əllərdə, könüllərdə və
dillərdə qərar tut,
Olsun bu Vətən torpağı
başdan-başa bayraq!..

İlham Qəhrəman

### Laçında qalan qardaşım

Mənim bir tut qardaşım varıdı,
Laçında qaldı.
Boyu - necə deyərlər -
Şahə qalxan dəniz.
Ah,
Bizi bir yerdə görsəydiniz
dəyişik salardınız.
Bir az cığal, bir az dağal idi, -
Mən onu silkələyəndə
yuxarıdan
qoynuma tut atar,
köynəyimi qara boyayardı.
Yaman da cüvəllağıydı -
Qızlara "bığ-saqqal" qoyardı.
...qardaş deyib xatırlasam
Ürək qovrular qubardan.
Heyif, şəkli yoxdu,
yoxsa böyüdüb asardım
evimin yalın divarından...

Hamlet Kazımoğlu

### Vətən torpağında uyu...

Vətən mənim, mən Vətənin
Vətənsiz ömrüm daşlanar.
Sərhədlər var yarıb keçsəm
yenə də başlanar.

Dərd yuxusunu Vətənin
görüb tərsinə yozuram.
Atdım döyüşə özümü
candan keçməyə hazıram.
Sığallı ruhum Vətəni
gəzər, gəzər Vətən boyu.
Döyüşdə ölən bədənim,
Vətən torpağında uyu...

Nərgiz Hüseynova

### Ağrı

Bu gecə yuxuda gördüm özümü,
Ağappaq geyimdə bir mələyiydim.
Ruhumda, canımda rahatlıq vardı,
Tanrının yazdığı bir əsəriydim.

Yuxum da özümtək möcüzə idi;
Məni gözləyirdi həzin küləklər,
Nərgizi səsləyən tər bənövşələr,
Quşların nəğməsi, bir də meşələr.

Görürəm gedirəm dənizə sarı,
Ləpələr, dalğalar izləyir məni.
Gizli qalanlarım gizlində qalır,
Həsrət qaldıqlarım gözləyir məni.

Qərq olmaq istərəm dalğalara mən,
Qoy batım dənizdə, ömürdü gedir.
Fikirlər başımda tufan qoparır,
Gecələr yuxuma çox təsir edir...

# Hərbi ənənələr, yeniliklər

## "Plamen-S" yaylım atəşli reaktiv sistemi



**Yuqoslaviya:** Yaylım atəşli 128 mm-lik reaktiv "Plamen" sistemi ilə düşmənin cəmləşdiyi ərazidə yüngül zirehli texnikasına və canlı qüvvəsinə güclü zərbə endirmək, onun komanda məntəqələrini, rabitə xətlərini və hərbi sənaye infrastrukturlarına məxsus olan obyektləri məhv etmək olar. Onun ilk variantının hazırlanmasına 1958-ci ildə başlanılıb və 1963-cü ildə başa çatıb. Bu sinifdən olan sonuncu nümayəndələrdən biri atəş uzaqlığı 12,6 kilometrə qədər artırılmış mobil döyüş maşını M94 "Plamen-S"-dir. Hazırda "Plamen" maşını özünə yedəkli buraxıcı M63 "Plamen-A" qurğusunu, xüsusi bölmələri təchiz etmək üçün daşınan birlüləli buraxıcı M71 "Partizan" qurğusunu, avtomobil şassisində M94 "Plamen-S" mobil döyüş maşınını, səkkizlüləli M63 "Plamen-R" buraxıcını daxil edir.

"Plamen"in buraxıcı qurğusunun tuşlama mexanizmi, atəşi idarəetmə bloku və nişangahı paketin sol tərəfində bərkidilib. Onun ştat yedəkli avtomobili TAM 1500 yük avtomobilidir. Avtomobildən döyüş sursatlarını daşımaq üçün istifadə edilir. M94 "Plamen-S" döyüş maşını yüksək keçidliyə malik olan yük maşınında yerləşdirilir. Tuşlama mexanizmi əllə hərəkətə gətirilir. Atış zamanı döyüş maşınının davamlılığını artırmaq üçün onun arxa hissəsində domkratla iki dayaq bərkidilib. Təchiz edilmiş vəziyyətdə çəkisi 9,6 ton, maksimal sürəti saatda 80 kilometrlik təşkil edir. 100 kilometrlik məsafəyə qədər 30 litr yanacaq sərf edir. Kabinə ilə buraxıcı qurğu arasında tez bir vaxtda təchiz olunmaq üçün 32 reaktiv mərmidən ibarət olan əlavə qurğu yerləşdirilib. Əllə də təchiz edilə bilər. Atəş açmaq üçün idarə olunmayan borureaktiv mərmilərdən istifadə edilir. Atəş tək-tək və ara verməklə ardıcıl açıla bilər. Qurğunun uzunluğu səhra vəziyyətində 3682 mm, eni 2212 mm, təchiz olunmamış çəkisi 1395 kiloqram, heyəti 7 nəfərdən ibarətdir. Beş dəqiqə ərzində təchiz olunur, 32 istiqamətləndiricidən ibarətdir, uzunluğu 1030 mm-dir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan cüdoçuları "Böyük dəbilqə" turnirində 3 medal qazanıblar



Fevralın 12-də Parisdəki Accorhotels Arenada keçirilən cüdo üzrə "Böyük dəbilqə" turniri başa çatıb.

Azərbaycan millisi bu idman üzrə ən mötəbər hesab olunan Paris turnirində 3 medal qazanıb. Elxan Səfərov (60 kq), Nicat Şıxəlizadə (66 kq) və Hidayət Heydərov (73 kq) beynəlxalq turnirin bürünc medalına sahib olublar.

İki gün davam edən yarışlarda 63 ölkədən 459 idmançı mübarizə aparıb. Turnirdə ölkəmizi 7 idmançı təmsil edib.

## Azərbaycanlı gənclər boks üzrə Gürcüstan çempionatında mübarizə aparacaqlar

Gürcüstanda fevralın 15-dən 19-dək gənclər arasında boks üzrə ölkə çempionatı keçiriləcək.

Boks üzrə Gürcüstan Milli Federasiyasının təşkil etdiyi çempionatda bu ölkənin vətəndaşı olan yeddi azərbaycanlı gənc mübarizə aparacaq.

Yarışda azərbaycanlılarla yanaşı, gürcü və digər millətlərin nümayəndələri də güclərini sınayacaqlar.

Çempionat azərbaycanlıların yığcam yaşadıqları Marneuli şəhərindəki "Ata Holdinq" salonunda təşkil olunacaq.

## Qılıncoynatma üzrə Azərbaycan birinciliyi keçirilib



Qılıncoynatma üzrə yeniyetmələr arasında Azərbaycan birinciliyi keçirilib.

Çempionatda 36 oğlan 28 qız idmançı şpaqa və sablya yarışlarında mübarizə aparıblar.

Yarışın açılışında Azərbaycan Qılıncoynatma Federasiyasının vitse-prezidenti Yaşar Məmmədov, Gənclər və İdman Nazirliyinin nümayəndəsi Yusif Hüseynov çıxış edərək iştirakçılara uğurlar arzulayıblar.

Sonda yarışın qalibləri diploma təltif edilib.

## Azərbaycanın yeniyetmə və gənc taekvondoçuları Türkiyədəki beynəlxalq turnirdə 7 medal qazanıblar

Azərbaycanın taekvondo üzrə milli komandasının üzvləri Türkiyədə keçirilən beynəlxalq turnirdə uğurla çıxış edərək 1-i qızıl, 3-ü gümüş və 3-ü bürünc olmaqla, ümumilikdə yeddi medal qazanıblar. Bu uğura komandamız Antalyada keçirilən taekvondo üzrə "Turkish Open" beynəlxalq turnirində nail olub.

Yeniyetmələrdən ibarət yığmamızın idmançıları - 37 kiloqram çəki dərəcəsində mübarizə aparan Aysu Məmmədova gümüş, Pərviz İsgəndərov (45 kq) isə bürünc medala sahib olublar.

Dayanq üzərinə çıxmış taekvondo üzrə gənclərdən ibarət yığmamızın üzvlərindən Ayaz Qənbərli (51 kq) bütün rəqiblərini yarışdan kənarlaşdıraraq komandamızın aktivinə qızıl medal əlavə edib. Mehriban Məmmədova (44 kq) və Orxan Tağızadə (78 kq) isə finalda məğlubiyyətlə üzləşərək gümüş medalla kifayətləniblər. Minayə Əkbərova (42) və Sevda Pirseyidova (44 kq) turnirdə bürünc medal qazanıblar.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan Məhəmməd ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günləri) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 55
Nüsxə 4650